# “Nəriman Nərimanov – böyük maarifçi və ictimai-siyasi xadim” adlı Respublika elmi konfransı keçiriləcək

2020-ci ilin aprel ayında Azərbaycanın görkəmli maarifçisi, dövlət və ictimai xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyi tamam oldu. N.Nərimanov öz ictimai-siyasi və maarifçilik fəaliyyətilə XX əsr Azərbaycan tarixində əhəmiyyətli iz qoyub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin N.Nərimanovun 150 illik yubileyi ilə əlaqədar Sərəncamına uyğun olaraq, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda “Nəriman Nərimanov – böyük maarifçi və ictimai-siyasi xadim” adlı Respublika elmi konfransı keçiriləcək.

Konfransda Respublikanın müxtəlif elm və təhsil müəssisəsinin əməkdaşlarından 22 tezis qəbul edilib. Tədbirdə Nəriman Nərimanovun fəaliyyəti ilə bağlı məruzələr dinlənəcək. Məruzələrdə Nəriman Nərimanovun zəngin və çoxşaxəli fəaliyyəti müxtəlif aspektdən nəzərdən keçiriləcək. Bu sırada görkəmli dövlət xadiminin istər ictimai-siyasi fəaliyyəti və baxışları, istər maarifçilik sahəsində xidmətləri, istər ədəbi yaradıcılığı, istər elmi-nəzəri görüşləri, istər tibb sahəsində qələminin məhsulu, istər dilçilik fəaliyyəti ilə bağlı maraqlı məruzələr səsləndiriləcək. Tədbir iştirakçıları “Nəriman Nərimanov irsi təhsilalanların şəxsiyyətinin formalaşdırılmasının nəzəri mənbəyi kimi”, “”1920-ci illər Azərbaycanının ictimai-siyasi həyatında Çin izi”, “Nəriman Nərimanovun elmi-nəzəri görüşləri”, “Nərimanov irsi və müasirlik”, “Nərimanovun ədəbi-siyasi fəaliyyətində azərbaycançılıq və milli özünüdərk”, “Nəriman Nərimanov 1918-ci il soyqırımı haqqında”, “Nəriman Nərimanov – Şərqdə sosialist inqilabinin cəngavəri”, “Təhsil tariximizin fədailəri”, “XX əsrin sonu-XXI əsrin əvvəllərində Misir cəmiyyətini tənəzzülə sürükləyən reallıqların ədəbiyyatda inikası”, “Nəriman Nərimanovun “Pir” povestində sual cümlələri”, “Türkçülüyün tərəfdarı Nəriman Nərimanov”, “Nəriman Nərimanovun maarifçilik fəaliyyətinin əsas istiqamətləri və tarixi əhəmiyyəti”, “Nəriman Nərimanov və “Tibb və İslam" adlı kitabı əsasında tibbi nəbəvi ilə bağlı görüşləri”, “Nəriman Nərimanovun Türkiyə siyasəti”, “Azərbaycan məktəb və pedaqoji fikrin inkişafında N.Nərimanov yaradıcılığı”, “N.Nərimanovun ictimai-siyasi fəaliyyətində Azərbaycan neft məsələsi”, “Azərbaycan dramaturgiyasının görkəmli nümayəndəsi, siyasi xadim Nəriman Nərimanovun həyat tarixçəsi”, “Nəriman Nərimanovun “Nadir Şah” tarixi faciəsində Nadir Şah hökmdar və ata kimi”, “Böyük ədib və görkəmli siyasi xadim Nəriman Nərimanov”, “Nəriman Nərimanovun təhsilin inkişafında rolu”, “Nəriman Nərimanovun dilçilik sahəsində xidmətləri”, “Tibb və İslam” əsəri əlyazmalar xəzinəsində” kimi məruzələri dinləmək imkanı əldə edəcəklər.